# Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1995-ci il 17 yanvar tarixli 12 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Məktəbəqədər tərbiyə müəssisələri haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

"Azərbaycan Respublikasında körpələr evlərinin, körpələr evi-uşaq bağçalarının, uşaq bağçalarının, xüsusi uşaq bağçalarının və uşaq evlərinin inkişafı ilə bağlı tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 27 dekabr tarixli 1941 nömrəli Sərəncamının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti

**QƏRARA ALIR:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1995-ci il 17 yanvar tarixli 12 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Məktəbəqədər tərbiyə müəssisələri haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1.1. 50-ci hissənin birinci abzasında "Nazirliyin və rayon (şəhər) təhsil şöbələrinin" sözləri "Yerli icra hakimiyyəti orqanlarının" sözləri ilə əvəz edilsin;

1.2. 62-ci hissənin yeddinci abzasında "təhsil orqanlarının təqdimatına əsasən, nazirliyin əmri" sözləri "icra hakimiyyəti orqanının qərarı" sözləri ilə əvəz edilsin.

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

***Azərbaycan Respublikasının***
***Baş naziri***
***Artur Rasi-zadə***
***Bakı şəhəri, 2 mart 2012-ci il***
***№ 53***

---